AZƏRBAYCAN RESPUBLIKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**ŞAHKƏRƏM MİRZƏMƏMMƏD OĞLU MƏMMƏDOV**

# İBTİDAİ SİNİF MÜƏLLİMİNİN TƏRBİYƏVİ FƏALİYYƏTƏ HAZIRLANMASININ PEDAQOJİ-PSİXOLOJİ ƏSASLARI

**5804.01- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi**

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

BAKI – 2014

Dissertasiya Bakı Slavyan Universitetinin İbtidai təhsil kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər : **Sabir Əli oğlu Şəfiyev**
pedaqogika üzrə fəlsəfə doktoru, professor

Rəsmi opponentlər: **Vidadi Cəmil oğlu Xəlilov**
pedaqogika üzrə elmlər doktoru, professor
əməkdar müəllim,

**Heydər Allahyar oğlu Cəfərov**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Aparıcı təşkilat: **Sumqayıt Dövlət Universitetinin Pedaqogika və psixologiya kafedrası**

Müdafiə «_23__»__09____ 2014-cü il tarixdə saat «_____»-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD.02.061 Dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.
Ünvan: AZ -1000, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 34

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «___»_____________ 2014-cü ildə göndərilmişdir.

Dissertasiya şurasının
elmi katibi **K.R.Quliyeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

## TƏDQIQATIN ÜMUMI SƏCIYYƏSI

**Mövzunun aktuallığı.** Böyüyən nəsillərin təlim-tərbiyəsi sahəsində aparılan islahatlar, təhsilin Avropa standartları səviyyəsinə qaldırılması, Vətənimizi beynəlxalq miqyasda layiqincə təmsil edə biləcək, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrların hazırlanması bütövlükdə müəllimin və xüsusilə uşaqlarda elmi biliklərin təməlini formalaşdıran ibtidai sinif müəlliminin şəxsi və peşə keyfiyyətlərinin zənginləşdirilməsi, dövrün tələblərinə müvafiq elminin pedaqoji və metodiki hazırlığının təkmilləşdirilməsi ilə şərtlənir. Bu baxımdan ibtidai sinif müəlliminin müasir təlim-tərbiyəvi fəaliyyətə hazırlanması elmi pedaqogikanın aktual problemlərindən biridir. Belə ki, ölkəmizin dünya birliklərinə uğurla inteqrasiya etdiyi indiki dövrdə şagirdlərin tərbiyəsinə təsir göstərən amillərin artdığını nəzərə alaraq məqsədyönlü və mütəşəkkil tərbiyəvi təsirlər də gücləndirilməlidir. Böyüyən nəslin meyil, maraq və tələbatlarını peşəkarlıqla ödəyə biləcək kompetensiyalı (bilik, bacarıq və vərdişlərə malik) ibtidai sinif müəlliminin hazırlanması onun yeni şəraitə uyğunlaşmasına, vətəndaş mövqeyini müəyyənləşdirməsinə, tərbiyəvi fəaliyyətini düzgün qurmasına, öz pedaqoji-psixoloji bilik və bacarıqlarının səmərəli tətbiqinə, tərbiyənin forma və üsullarını düzgün seçə bilməsinə kömək etməlidir.

Cəmiyyətimizdə gedən müsbət ictimai-iqtisadi dəyişikliklər təhsil müəssisələrində təlim prosesinin keyfiyyətinə nəzərəçarpacaq təsir göstərmişdir. Belə ki, təhsil, təlim-tərbiyə prosesinin gedişi və nəticələrini yaxşılaşdırmaq məqsədilə yeni təlim texnologiyalarından istifadəyə üstünlük verilmiş, düşünülmüş konsepsiyalar, tədris planları tərtib olunmuş, müasir təhsil infrastrukturu yaradılmış və son nəticədə təhsilin keyfiyyətinin yüksəldilməsi sahəsində müəyyən müsbət nəticələr əldə edilmişdir. Lakin ayrı-ayrı qabaqcıl müəllimlərin təlimin təhsilləndirici (öyrədici) vəzifələrini uğurla yerinə yetirmələrilə yanaşı, bütövlükdə təlim üsullarının tərbiyəedici imkanlarından az istifadə olunmuşdur. Bu isə onların tərbiyə sahəsində müasir pedaqoji konsepsiyalar haqqında məhdud məlumata malik olmaları ilə izah olunur. Belə ki, ibtidai sinif müəllimləri və məktəb rəhbərləri ilə aparılan sorğuların nəticəsi göstərdi ki, onlar tərbiyəyə nisbətən təhsilin müasir nəzəriyyə və texnologiyalarını daha yaxşı bilirlər. Halbuki, təhsil sahəsində dövlət siyasətini həyata keçirən bir tərbiyə institutu kimi məktəbin inkişafı onun təhsil və tərbiyə funksiyalarını paritet əsasda və kompleks şəklində yerinə yetirməsi ilə şərtlənir.

Qeyd etmək lazımdır ki, tərbiyə işində yeni konseptual yanaşmaların həyata keçirilməsi müəllimin peşəkarlıq, pedaqoji mədəniyyət səviyyəsinin

və şəxsi məsuliyyət hissinin əsaslı şəkildə yüksəldilməsi şəraitində mümkündür. Bununla əlaqədar olaraq ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanması məsələsi kəskin şəkildə ortaya çıxır.

Mövcud elmi- pedaqoji ədəbiyyatın araşdırılması tərbiyəvi fəaliyyətə hazırlanmanın aşağıdakı ümumi müddəalarını müəyyənləşdirməyə imkan verir:

- şagirdlərin tərbiyəsi sahəsində bilik, bacarıq və vərdişlər sisteminin mövcudluğu;
- tərbiyəedici bacarıqların və lazımi şəxsi keyfiyyətlərin fasiləsiz inkişaf etdirilməsi;
- yeni tərbiyə texnologiyalarından istifadə etməklə şagirdlərlə tərbiyə işini sərbəst qurma qabiliyyəti;
- öz şəxsi və peşəkar davranışını təhlil etmə bacarığı və s.

Beləliklə, cəmiyyətimizin müasir inkişaf mərhələsində ibtidai sinif müəlliminin qarşısında mühüm vəzifələr durur. Bu gün parta arxasında əyləşən hər bir məktəbli bir neçə ildən sonra müstəqil həyata atılacaq və cəmiyyətin ictimai həyatında fəaliyyət göstərəcəkdir. Gənc nəslin həyata düzgün hazırlanması ali təhsil aldığı müddətdə və ali təhsildən sonrakı mərhələdə gələcək müəllimin tərbiyəvi fəaliyyətə hazırlıq səviyyəsindən asılıdır.

Tədqiqatın aktuallığı müasir şəraitdə ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının səmərəli forma və metodlarının axtarılması, onların ali təhsil müəssisələrində və ixtisasartırma sistemində tətbiqi ilə bağlıdır.

Azərbaycan Respublikasında ali təhsilin bakalavr pilləsində ibtidai sinif müəllimlərinin hazırlığı sahəsində qəbul olunmuş Kurikulumda həlli nəzərdə tutulan problemlər də tədqiqatın aktuallığını şərtləndirir.

Giriş və müvafiq bölmələrdən ibarət olan Kurikulum aşağıdakı struktura malikdir:

1) bakalavr pilləsində ibtidai sinif müəllimi və onun hazırlığına verilən ümumi tələblər;
2) bakalavr pilləsində ibtidai sinif müəllimi hazırlığının məzmun standartları;
3) tədris olunan fənlərin əsaslandırılması, təlim nəticələri və fənlərin məzmununa verilən minimum tələblər;
4) bakalavr pilləsində ibtidai sinif müəllimi hazırlığı üzrə pedaqoji prosesin təşkili prinsipləri və təlim strategiyaları;
5) bakalavr pilləsində tələbə nailiyyətlərinin qiymətləndirilməsi;
6) fənn kurikulumlarının strukturu.

Ali təhsilin bakalavr pilləsində ibtidai sinif müəlliminin hazırlanması Kurikulumu konseptual bir sənəddir. O, hazırlanarkən islahat proqramının tələbləri, təhsil sahəsində dövlət siyasəti, Azərbaycanda fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası, fasiləsiz müəllim hazırlığı sahəsində mövcud dünya təcrübəsi və standartları nəzərə alınmışdır.

Kurikulumda həyata keçirməsi nəzərdə tutulan vəzifələrdən aşağıdakılar xüsusi əhəmiyyət kəsb edir:

a) ibtidai sinif müəlliminin hazırlığında tədirs edilən fənlər arasında əlaqə və ardıcıllığın təmin olunması;

b) ibtidai sinif müəlliminin hazırlığı sahəsində varisliyin təmin edilməsi məqsədilə ali təhsilin ümumi təhsillə əlaqəsinin genişləndirilməsi və bu prosesdə ümumtəhsil məktəblərinin də iştirakının təmin olunması;

c) əlverişli, səmərəli şərait və nəticəyönümlü təlim mühitinin yaradılması;

ç) peşə fəaliyyətinin səmərəliliyi;

d) müəllimlərin bilik, bacarıq və vərdişlərinin təcrübəyönümlü tədris fəaliyyəti ilə əlaqələndirilməsinin təmin olunması və s.

Ali təhsilin bakalavriat pilləsində ibtidai sinif müəllimi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 saylı 9 yanvar 1997-ci il tarixli qərarı ilə təsdiq olunmuş "M011600 – İbtidai təhsilin pedaqogikası və metodikası" ixtisasına müvafiq hazırlanır və məzunlara pedaqoji fəaliyyətin aşağıdakı növləri ilə məşğul olmaq səlahiyyəti verilir: 1) təlim-tərbiyə; 2) ictimai-pedaqoji; 3) mədəni-maarif; 4) elmi-metodik; 5) təşkilati-idarəetmə.

Dissertasiya mövzusu məhz ibtidai sinif müəlliminin həm təlim-tərbiyə, həm ictimai-pedaqoji və həm də təşkilati-idarəetmə fəaliyyət növlərini əhatə edir.

İbtidai sinif müəlliminin tərbiyə işinə hazırlığı problemi pedaqoji aspektdə klassik Avropa pedaqoqları Y.A.Komenski, A.V.Disterveq, İ.H.Pestalossi, rus pedaqoqları K.D.Uşinski, P.P.Blonski, S.T.Şatski, A.S.Makarenko, V.A.Suxomlinski və başqaları tərəfindən işlənilmişdir.

Azərbaycanın görkəmli mütəfəkkirləri A.A.Bakıxanov, M.F.Axundov, H.B.Zərdabi, M.M.Kazımbəy, S.Ə.Şirvani, M.T.Sidqi, sonrakı dövrdə C.H.Məmmədquluzadə, F.B.Köçərli, R.B.Əfəndiyev, M.Ə.Sabir, N.N.Nərimanov, Ü.Ə.Hacıbəyov, habelə ilk peşəkar pedaqoqlardan M.M.Mehdizadə, Ə.Y.Seyidov, M.Ə.Muradxanov və b. ibtidai sinif müəllimlərinin tərbiyəvi fəaliyyətə hazırlanması, bütövlükdə, müəllim hazırlığı sahəsində əvəzsiz xidmətlər göstərmişlər.

Pedaqoji ali təhsil müəssisələrində mütəxəssis hazırlığının nəzəri əsasları, peşə fəaliyyəti prosesində tərbiyə işinə sistemli yanaşma, pedaqoji prosesin tamlığı, ümumi pedaqoji-peşə istiqamətləri məsələlərini Azərbaycan alimləri Ə.Ə.Ağayev, M.Ə.Həmzəyev, M.A.İsmixanov, Ə.Ş.Həşimov, N.M.Kazımov, Y.R.Talıbov, Y.Ş.Kərimov, H.Ə.Əlizadə, Ə.X.Paşayev, F.A.Rüstəmov və b. tədqiq etmişlər.

Müəllimin peşə bacarıq və vərdişlərinin inkişafı məsələlərinin tədqiqinə C.Q.Alıyev, T.D.Ələkbərov, V.H.Əliyev, Z.T.Müslimov; pedaqoji ünsiyyəti probleminin araşdırılmasına M.Ə.Həmzəyev, A.M.Həsənov, V.A.Kan-Kalik, Y.Ş.Kərimov, A.V.Mudrik və digər alimlərin əsərlərində daha çox diqqət yetirilmişdir.

Tədqiqatçı-alimlərin fikrincə, cəmiyyətin müasir inkişafı dövründə pedaqoji peşə problemlərinin uğurlu həlli bu fəaliyyətə hazırlığın mükəmməlliyi və keyfiyyəti ilə şərtlənir. Belə hazırlıq müəllimə yeni iş şəraitinə tez uyğunlaşmağa, düzgün pedaqoji və vətəndaş mövqeyi tutmağa, pedaqoji fəaliyyətin başlıca istiqamətlərini müəyyənləşdirməyə, öz pedaqoji bilik və bacarıqlarından səmərəli istifadə etməyə, peşə vəzifəsini müvəffəqiyyətlə yerinə yetirməyə, tərbiyənin metod, forma və vasitələrini düzgün seçməyə və tətbiq etməyə kömək edir.

Mövcud pedaqoji ədəbiyyatın təhlili təhsil müəssisələrinin səriştəli, peşəkar müəllimlərə olan tələbatı ilə onların ali təhsil müəssisələri və ixtisasartırma sistemində hazırlanmasının qeyri-qənaətbəxş səviyyəsi arasında ziddiyyətin mövcud olduğunu göstərdi. Bu ziddiyyətin aradan qaldırılması müəyyən qədər ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının pedaqoji-psixoloji əsaslarının işlənilməsi ilə şərtlənir.

**Tədqiqatın obyekti** ibtidai sinif müəllimi hazırlığı prosesidir.

**Tədqiqatın predmeti** ali təhsil müəssisələrində və ali təhsildən sonrakı mərhələdə ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının pedaqoji-psixoloji əsaslarıdır.

**Tədqiqatın məqsədi** ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasına imkan yaradan pedaqoji-psixoloji şəraiti müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri:**

1) respublika məktəblərində müvafiq sahədə əldə olunmuş zəngin təcrübənin təhlili əsasında təhsil müəssisələrində ibtidai sinif müəllimlərinin tərbiyəvi fəaliyyətə hazırlanması vəziyyətini müəyyən etmək;

2) fasiləsiz pedaqoji təhsil sistemində, təhsil müəssisələrində gələcək müəllimlərin və ibtidai sinif müəllimlərinin tərbiyəvi fəaliyyətə hazırlanmasının xüsusiyyətlərini üzə çıxarmaq;

3) təhsil müəssisələrində gələcək ibtidai sinif müəllimlərinin tərbiyəvi fəaliyyətə hazırlanmasına imkan yaradan pedaqoji-psixoloji şəraiti müəyyənləşdirmək və eksperiment yolu ilə yoxlamaq;

4) təhsil müəssisələrində tələbə və ibtidai sinif müəllimlərinin tərbiyəvi fəaliyyətə hazırlanmasına yönəldilmiş elmi-metodik tövsiyələr hazırlamaq.

**Tədqiqatın fərziyyəsi.** Gələcək ibtidai sinif müəlliminin ali təhsil müəssisəsində və təhsildən sonrakı mərhələdə tərbiyəvi fəaliyyətə hazırlanmasının xüsusiyyətləri nəzərə alınarsa, fasiləsiz pedaqoji təhsil şəraitində tələbə və ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının yeni modeli reallaşdırılarsa, onlar tərbiyəvi fəaliyyətə hazırlığı stimullaşdıran fəaliyyətə cəlb edilərsə, təhsil müəssisələrində ibtidai sinif müəllimlərinin tərbiyəvi fəaliyyətə hazırlanması prosesinin ardıcıl, məqsədyönlü və kompleks şəkildə həyata keçirilərsə təhsil müəssisələrində ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanması məqsədəuyğun və səmərəli şəkildə reallaşdırıla bilər.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və prosesləri öyrənmək, dərk etmək və dəyişdirmək məqsədilə tətbiq olunan prinsiplərin, metodların, vasitələrin və nəzəri müddəaların məcmusu təşkil edir.

**Tədqiqatın metodları:** pedaqoji müşahidə, anketləşdirmə, nəzəri təhlil, test, müsahibə, fərdi və qrup halında aparılan söhbətlər, pedaqoji eksperiment.

**Tədqiqatın eksperimental bazası:** Bakı Slavyan Universiteti, Bakı şəhərinin 44, 46, 164 və 190 saylı tam orta məktəbləri, Bakı Slavyan Universitetinin nəzdindəki E.Cavadov adına məktəb-lisey kompleksi, BSU-nin əlavə təhsil fakültəsi.

Eksperimentdə 170 tələbə, əlavə təhsil fakültəsinin dinləyiciləri və pedaqoji təhsil müəssisələrinin müəllimləri, 110 nəfər ibtidai sinif müəllimi iştirak etmişdir. Tədqiqat işi 2005 – 2011-ci illərdə bir neçə mərhələdə aparılmışdır.

Birinci (2005 – 2006-cı illər) müəyyənedici mərhələdə problemin mövcud vəziyyəti nəzəri cəhətdən tədqiq olunmuş, tədqiqatın metodoloji bazası müəyyənləşdirilmiş, müvafiq fəlsəfi, pedaqoji və psixoloji ədəbiyyat təhlil edilmiş; dissertasiyanın elmi əsası və strukturu hazırlanmış; eksperiment mərhələsinə hazırlıq işləri aparılmış; ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının səmərəli yolları, forma və vasitələrinin müəyyənləşdirilməsi məqsədilə tələbələr, ibtidai sinif müəllimləri və sinif rəhbərləri ilə söhbətlər aparılmışdır. Bu, eksperiment işinin hazırlanması və tədqiqatın təşkili məsələlərini müəyyənləşdirməyə imkan vermişdir.

İkinci (2006–2007-ci illər) mərhələdə tələbə və ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının səmərəli təşkilinə imkan verən pedaqoji şərait müəyyənləşdirilmiş, tədqiqatın fərziyyəsi və nəzəri müddəaları dəqiqləşdirilmiş, gələcək ibtidai sinif müəllimlərinin təhsil müəssisələrində tərbiyə işinə hazırlığının modeli işlənib hazırlanmışdır.

Üçüncü (2008–2009-cu illər) təcrübi-eksperimental mərhələ respublikamızda "Azərbaycan Respublikasında ali təhsil pilləsində ibtidai sinif müəllimlərinin hazırlığı üzrə çərçivə Kurikulumu"nun qəbul olunduğu vaxta (2008) təsadüf edir. Bu mərhələdə nəzəri müddəalar dərindən öyrənilmiş, müvafiq eksperiment aparılmış, tələbə və ibtidai sinif müəllimlərinin təhsil müəssisələrində tərbiyəvi fəaliyyətə hazırlanmasının modeli ali təhsil və ali təhsildən sonrakı mərhələlərdə təcrübədən keçirilmiş, eksperimentin nəticələri təhlil edilmişdir.

Dördüncü (2010–2011-ci illər) ümumiləşdirmə mərhələsində təcrübə-eksperiment işi təhlil edilmiş, sistemləşdirilmiş, şərh edilmiş və ümumiləşdirilmiş, nəticə və tövsiyələrin xülasəsi verilmiş, əldə edilmiş nəticələrin təcrübədə tətbiq olunmasının yolları nəzərə çatdırılmışdır. Dəyişdirici, yaradıcı eksperimentdə əldə olunmuş nəticələrin etibarlılığını yoxlamaq məqsədilə yoxlayıcı eksperiment keçirilmişdir.

**Tədqiqatın elmi yeniliyi** fasiləsiz pedaqoji təhsil sistemində ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının xüsusiyyətləri və komponentlərinin, bu hazırlığa zəmin yaradan pedaqoji şəraitin müəyyənləşdirilməsindən; onun təcrübəyönümlü modelinin hazırlanması və reallaşdırılmasından ibarətdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti** ibtidai sinif müəllimlərinin tərbiyə işinə hazırlanmasının pedaqoji-psixoloji əsaslarının (məqsədi, məzmunu, prinsipləri, metodları, komponentləri, əlamətləri, texnologiyaları və s.) müəyyənləşdirilməsindən ibarətdir.

**Tədqiqatın praktik əhəmiyyəti** təhsil müəssisələrində gələcək ibtidai sinif müəllimlərinin tərbiyəvi fəaliyyətə hazırlanması üzrə tövsiyələrin işlənilməsindən, ixtisasartırma sistemində ibtidai sinif müəllimlərinin tərbiyəvi fəaliyyətə hazırlanması üzrə xüsusi kursların təşkili və keçirilməsindən ibarətdir.

**Dissertasiyanın nəticələri** Bakı Slavyan Universitetində pedaqoji-psixoloji fənlərin tədrisində və ixtisasartırma sistemində tətbiq edilmişdir.

**Müdafiəyə təqdim olunan müddəalar:**

1. Təhsil müəssisələrində gələcək ibtidai sinif müəllimlərinin tərbiyəvi fəaliyyətə hazırlanması fasiləsiz təhsil sistemində peşə hazırlığı prosesinin dəyişməz tərkib hissəsidir. Bu, gələcək müəllimlərə tərbiyəvi fəaliy-

yətin məqsədəuyğunluğunu dərk etməyə, nəzəri-praktik bacarıqlar qazanmağa, təlim və tərbiyə prosesinin inteqrasiyasına zəmin yaradan ümumi və spesifik xüsusiyyətləri nəzərə almağa kömək edir.

2. İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının struktur komponentlərinin (sosial, peşəkarlıq, şəxsiyyət) müəyyənləşdirilməsi bu işin keyfiyyətini və səmərəliliyini artırır.

3. Ali təhsil müəssisələrində tələbələrin təlim-tərbiyə prosesində nəzəri və praktik hazırlığı, elmi-tədqiqat işində, pedaqoji təcrübədə iştirakı, auditoriyadankənar tədbirlərə cəlb edilməsi və ibtidai sinif müəllimlərinin tərbiyəvi fəaliyyətə hazırlanmasının reallaşdırılmasını təmin edən pedaqoji şəraitin müəyyənləşdirilməsi onların tərbiyə fəaliyyətə hazırlanmasında mühüm rol oynayır.

4. Təhsil müəssisələrində tələbə və müəllimlərin tərbiyə işinə hazırlanması prosesinin elmi-metodik təminatı təcrübəyönümlü model, xüsusi kursların proqramları, didaktik və metodik vasitələr komplekti əsasında həyata keçirilməsi onların tərbiyə fəaliyyətinə hazırlanmasında böyük əhəmiyyət kəsb edir.

Tədqiqat zamanı alınan nəticələrinin doğruluğu onun predmeti və vəzifələrinə sistemli yanaşma, pedaqoji-psixoloji, nəzəri və empirik tədqiqat metodlarının məqsədyönlü şəkildə uyğunlaşdırılması ilə yoxlanılmış və həyata keçirilmişdir. Elmi nəticələr müxtəlif üsulları tətbiq etməklə əldə olunmuş məlumatların müqayisəli təhlili ilə əsaslandırılmışdır.

**Tədqiqatın nəticələrinin aprobasiyası və tətbiqi.** Tədqiqatın nəticələri Bakı Slavyan Universitetinin əlavə təhsil fakültəsində keçirilən mühazirə, seminar və laborator-praktik məşğələlərdə, eksperimental məktəblərdə və digər təhsil müəssisələrində müəllimlər qarşısındakı çıxışlarda aprobasiyadan keçirilmişdir. Problemlə bağlı elmi-praktik konfranslarda məruzələr edilmiş, AAK-ın tövsiyə etdiyi jurnallarda 10 elmi məqalə nəşr olunmuşdur.

Dissertasiyanın quruluşu və həcmi: tədqiqat işi giriş, iki fəsil, beş yarımfəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**"İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının elmi-nəzəri əsasları"** adlanan birinci fəsil iki yarımfəsildən ibarətdir. *"İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanması pedaqoji-psixoloji problem kimi"* adlanan birinci yarımfəsildə qeyd edilir ki, şagird şəxsiyyətinin formalaşdırılması prosesində tərbiyəvi fəaliyyətə həmişə böyük əhəmiyyət vermişlər. Ölkəmizdə aparılan təhsil islahatları şəraitində ümumtəhsil məktəblərində tərbiyəvi fəaliyyətin gücləndirilməsi xüsusi aktuallıq kəsb etdiyindən yarımfəsildə bir çox müəlliflərin problemlə bağlı fikirləri sistemli şəkildə təhlil olunmuşdur. Bu fikirlərin bir-birinə yaxın olmasına baxmayaraq onlar arasında müəyyən fərqlər də aşkar edilmişdir. Sonda belə bir qənaətə gəlinir ki, ibtidai sinif müəllimi tərbiyə nəzəriyyəsini, tərbiyə işinin metodikasını, təlim-tərbiyə prosesinin təşkili üçün hüquqi normativ sənədləri, müxtəlif təhsil müəssisələrində tərbiyə prosesinin təşkilinə dair müasir baxışları, şəxsiyyətin inkişafının pedaqoji-psixoloji əsaslarını, uşaqların yaş, fərdi və cinsi xüsusiyyətlərini bilməlidir. Müəllimin təcrübədə tətbiq etdiyi biliklər şagirdlərin vərdişləri ilə sıx bağlıdır və onların formalaşdırılmasına təkan verir. Bu yarımfəsildə tələbə və müəllimlərin tərbiyə işinə hazırlanmasının komponentləri, meyarları və əlamətlərini göstərən şəkil verilmişdir. Burada sosial, peşəkarlıq və şəxsiyyət komponentləri ilə yanaşı meyarlar və əlamətlər ifadə olunmuş, onların hər birinin səciyyəsi verilmişdir. Əsaslandırlır ki, müəllimin tərbiyə işinə hazırlığı probleminin tədqiqi mürəkkəb və çoxcəhətli proses kimi aşağıdakıları özündə ehtiva edir: 1) peşə idealının formalaşdırılması və bunun əsasında fərdi yaradıcılığın təşkili; 2) iştirakçıların birgə yaradıcı fəaliyyəti və əməkdaşlığı əsasında təlim-tərbiyə prosesini layihələşdirilməsi; 3) müəllim və şagirdlərin qarşılıqlı fəaliyyət texnologiyasının hazırlanması; 4) obyektiv şərtlərin və müəllimin fərdi xüsusiyyətlərinin uzlaşdırılması. Bu hazırlıq prosesi fasiləsiz pedaqoji təhsil sistemində – ali təhsil müəssisələrində və təhsildən sonrakı mərhələdə həyata keçirilir.

Bu fəslin *"Fasiləsiz pedaqoji təhsil sistemində ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının xüsusiyyətləri"* adlanan ikinci yarımfəslində müəllimin tərbiyə işinə hazırlanmasının ali təhsil və təhsildən sonrakı dövrlərdə həyata keçirilməsinin xüsusiyyətləri üzə çıxarılır. Təhlil nəticəsində ibtidai sinif müəllimi 3 qrupa bölünür. Birinci qrupa öz peşəsinin ictimai məqsədini yaxşı başa düşən; ikinci qrupa öz pedaqoji peşə məqsədini nisbətən dar çərçivədə təsəvvür edən; üçüncü qrupa isə gündəlik, pedaqoji fəaliyyətə müntəzəm maraq və həvəs göstərən müəllimlər daxil

edilirlər. Tədqiqat müəllimlərin əksəriyyətinin tərbiyə işinə hazır olmadıqlarını, onların ilk növbədə təlimin təhsilləndirici funksiyasına daha çox diqqət yetirdiklərini aşkar etdi. Halbuki tərbiyə və təlim bir-birilə qarşılıqlı əlaqəli, bir-birini tamamlayan prosesdir.

Dissertasiyada "Müəllimin tərbiyə işinə istiqamətlənməsi" və "Şagirdlərin və tələbələrin əhval-ruhiyyəsi"ni əks etdirən cədvəllərdəki faiz göstəriciləri müəllimlərin tədqiq olunan problemlə bağlı psixoloji durumunu üzə çıxarmağa kömək etmişdir. Dissertasiyada "Sinif rəhbərinin (kuratorun) roluna münasibət" və "Sinif müəlliminin (kuratorun) konkret şagirdə (tələbəyə) münasibəti" cədvəllərindəki faiz göstəriciləri və onların təhlilindən məlum olur ki, tələbələrin bu məsələlərə münasibəti müxtəlifdir. Sinif rəhbərinin əsas işinin müvəffəqiyyətə nəzarət etmək, "yaxın yoldaş", "ikinci ana, ata" olduğunu qeyd etmişlər. Məktəblilərin və tələbələrin əksəriyyəti sinif rəhbərini (kuratoru) alicənab insan, xeyirxah məsləhətçi kimi səciyyələndirmişlər. Onlarin "Sinif müəllimindən (kuratordan) hansı keyfiyyətləri əxz etmək olar?", "Məktəblilərin (tələbələrin) öz sinif müəllimlərinin (kuratorlarının) həyatı haqqında bildikləri"ni müəyyənləşdirmək məqsədilə aparılan sorğunun nəticələri faiz göstəriciləri ilə ifadə olunmuşdur. Sorğu iştirakçıları əxz olunası keyfiyyətlər içərisində birinci yeri "alicənablığa" (məktəblilər 29%, tələbələr 22%), şagirdlərin öz sinif müəllimlərinin və tələbələrin öz kuratorlarının həyatı haqqında bildikləri barədə sorğuya birincilərin cavabı daha şaxəli olduğu halda, tələbələrin 52% sorğuya cavab verməmişdir.

Müəllimlərin fasiləsiz təhsil prosesində tərbiyə işinin təşkilinə hazırlanması probleminin öyrənilməsi aşağıdakı nəticələri əldə etməyə imkan verdi:

1. Cəmiyyətin tələbatlarına müvafiq olaraq təhsil sistemində həyata keçirilən islahatlarda müəllimlərin tərbiyə işinin təşkilinə hazırlanması problemi xüsusi əhəmiyyət kəsb edir. Aparılan təhlil tələbələrin həm gələcək tərbiyəçi-müəllim, həm də fənn müəllimi kimi hazırlanmasında təhsil prosesinin daha da təkmilləşdirilməsinin vacibliyini üzə çıxardı.

2. Müəllim hazırlığında əvvəlki nəsillərdən toplanan tarixi təcrübə və tərbiyə prosesinin humanistyönümlü ənənələrini nəzərə almaq vacib hesab edilir. Tərbiyə prosesinə tərbiyə edənlərin və tərbiyə olunanların birgə yaradıcılıq fəaliyyəti kimi baxılır. Bu fəaliyyət bütün iştirakçıları özünü inkişaf etdirməsi, özünütəkmilləşdirmə və özünügerçəkləşdirməsi üçün şərait yaratmağa istiqamətləndirir.

3. Tədqiq etdiyimiz problemlə bağlı bəzi anlayışlar dəqiqləşdirilmişdir. "Tərbiyə işi", "tərbiyə işinə hazır olmaq, "müəllimin tərbiyə işinə

hazırlanmasının təşkili” anlayışları üçün səciyyəvi olan əlamətlər müəyyənləşdirilmişdir.

4. Müasir tərbiyə prosesinin sosial, texnoloji və pedaqoji ziddiyyətləri müəyyənləşdirilmişdir.

5. Tələbə və müəllimlərin tərbiyə işinə hazırlanmasının komponentləri (sosial, peşə və şəxsiyyət), meyarları (sosial, peşə və şəxsiyyət) və göstəriciləri müəyyənləşdirilmişdir.

Sosial komponentin sosial meyarlarına müəllimin mədəniyyəti; peşə komponentinin peşə meyarlarına müəllim və tələbəyə tərbiyə işinin təşkili üçün vacib olan biliklər və bacarıqlar; şəxsiyyət komponentinin şəxsiyyət meyarlarına isə müəllimin peşə keyfiyyətləri, şəxsiyyətin istiqaməti, xarakter və qabiliyyətləri aiddir.

6. Yeni ictimai-iqtisadi şəraitdə humanist keyfiyyətlərə malik sinif müəlliminin rolu gündən-günə artmış, onun hazırlıq səviyyəsinə fasiləsiz təhsil sistemində tələblər yüksəlmişdir.

7. Tələbə və müəllimlərin ali təhsil müəssisəsində və ali təhsildən sonrakı mərhələdə hazırlanmasının ümumi və spesifik xüsusiyyətləri araşdırılmışdır.

Ümumi xüsusiyyyətlərə ictimai həyatın sosial-iqtisadi, siyasi, mənəvi təsiri, bölgənin milli və mədəni həyatı, nəzəriyyə və təcrübənin qarşılıqlı əlaqəsi, spesifik xüsusiyyətlərə isə fərdi yaradıcılıq üslubunun inkişafı, pedaqoji-peşə təfəkkürünün formalaşması, peşə ünsiyyətinə yiyələnmə, pedaqoji staj və peşə təcrübəsi, tədqiqatçılığa meyl və s. aiddir.

Dissertasiyanın ikinci fəsli **“Ali təhsil müəssisələrində və ali təhsildən sonrakı mərhələdə ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanması problemləri”** adlanır. Bu fəslin *“İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının təcrübəyönümlü modelinin işlənilməsi”* adlanan birinci yarımfəslində fasiləsiz təhsil sistemində müəllimin tərbiyə işinin hazırlanmasına imkan yaradan pedaqoji şərtlər müəyyənləşdirilir. Problemlə bağlı pedaqoji-psixoloji ədəbiyyatın təhlili arzuolunan modeli qurmağa əsas vermişdir. Bu məqsədlə prinsiplər (məqsədyönlülük, elmlilik, mərhələlik, sistematiklik və tamlıq, fasiləsizlik və varislik) müəyyənləşdirilir. Onlara əsasən qurulan model aşağıdakı vəzifələri özündə ehtiva edən bir sistem kimi başa düşülür:

1) müəllimin peşəkar kimi formalaşmasının mərhələsi kimi;

2) ali təhsil müəssisəsində və təhsildən sonrakı dövrdə təhsilin elm və təcrübə ilə inteqrasiyası kimi;

3) ibtidai sinif müəlliminin şəxsiyyət keyfiyyətlərinin formalaşması və möhkəmləndirilməsi kimi;

4) şəxsiyyətin özünüinkişaf və özünütəkmilləşdirilməyə olan meyli kimi.

Fasiləsiz pedaqoji təhsil sistemində tərbiyə işinə hazırlıq prosesinin elmi-metodiki, təşkilati və didaktik şərtləri və onların hər birinin məzmunu müəyyənləşdirilmişdir.

Gələcək ibtidai sinif müəllimlərinin tərbiyə işinə hazırlanmasının eksperimental şəraitdə yoxlanılması üçün peşə hazırlığının həyata keçirilməsi üçün iki mərhələ (fasiləsiz təhsil sisteminin ali təhsil müəssisəsi mərhələsi və ixtisasartırma) müəyyənləşdirilmişdir. Bununla yanaşı, modelin qurulmasının sosial, didaktik, psixoloji və tərbiyəvi məqsədləri həm ali təhsil, həm də ixtisasartırma mərhələsində vəzifələr müəyyənləşdirilmişdir. Bu, "Fasiləsiz pedaqoji təhsil sistemində müəllimin tərbiyəvi fəaliyyətə hazırlanması" proqramından istifadə edilməsinə zəmin yaratmışdır. Proqramı həyata keçirərkən müxtəlif iş formaları və metodlarından istifadə edilmişdir. Müəllimin tərbiyə işinə hazırlanmasının göstəricilərini yoxlamaq üçün meyarlar (sosial, peşə, şəxsi) da müəyyənləşdirilmişdir. Qiymətləndirmə 5 ballıq sistem (yüksək, orta və aşağı) əsasında aparılmış və hər göstəricinin müxtəlif iş formaları və metodlarından istifadə edilmişdir.

Bu fəslin *"Ali təhsil müəssisələrində tələbələrin tərbiyəvi fəaliyyətə hazırlanması prosesinin təşkili"* adlanan ikinci yarımfəslində iş üç istiqamətdə həyata keçirilir: təlim-tərbiyə prosesinin təşkili (nəzəri və praktik hazırlıq); gələcək müəllimlərin elmi-tədqiqat işi, təlim və istehsalat təcrübəsi; təlimdənkənar vaxtlarda fəaliyyətin təşkili.

Qeyd edilir ki, müəllimlərin hazırlanması müxtəlif təhsil müəssisələri tərəfindən həyata keçirildiyindən onların tətbiq etdikləri təhsil standartları, yəni saatların miqdarı və fənlərin məzmunu bir-birindən fərqlənir.

İbtidai sinif müəlliminin keyfiyyətli hazırlığının əsasını təhsilin baza (hamı üçün eyni) və variativ məzmunu təşkil edir. Sənədlərin təhlili göstərdi ki, ali təhsil mərhələsinə xüsusi kursların əlavə edilməsi yalnız standartların variativ məzmunu çərçivəsində mümkündür. Ali peşə təhsili üzrə dövlət standartlarının təhlili göstərdi ki, müəllimlərin təkmilləşdirilməsi proqramı (2000-ci il) təhsil proqramı kimi özündə ümumi, ixtisasa aid, tələbənin seçdiyi, eləcə də fakültativ fənləri birləşdirir. Dövlət təhsil standartı gələcək müəllimlərin tərbiyə işinə hazırlığının nəzəri və praktiki cəhətdən daha da dərinləşdirilməsinin vacibliyini qeyd edir. Bu standartın reallaşdırılmasında tərbiyə problemləri ilə bağlı nəzəri mövzular daha dərindən öyrənilir və müəllim üçün vacib sayılan praktik bacarıqlara tələblər daha aydın ifadə olunur. Hazırda ibtidai sinif müəllimi hazırlığı haqqında qəbul

edilən standartda təkcə təhsilin əsasları fənninin öyrənilməsinə 300 saata qədər vaxt ayrılır.

Eksperimentə başlamaq üçün ali təhsil müəssisələrində müəllimlərin tərbiyə işinə hazırlanmasına mane olan amillər üzə çıxarılmış və onlar aradan qaldırılmışdır. Bu amillər kafedraların işi və onların arasında əlaqələrin zəif olması ilə bağlı idi.

Eksperiment prosesində hər bir ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətinin uğurlu olması, onun bilik, bacarıq, vərdişlərə yiyələnməsi və şəxsiyyət keyfiyyətlərini inkişaf etdirməsi üçün şərait yaradılmışdır. Bu məqsədlə pedaqogika və psixologiya silsiləsindən olan fənlərin və xüsusi kursların tədrisi gücləndirilmişdir. Dissertasiyada bu fənlərin hər birinin rolu səciyyələndirilir. "Tərbiyə işinin təşkili metodikası" kursunun səmərəliliyini biz III kurs tələbələrində aşkar etdik. Bu eksperimental iş iki mərhələdə aparıldı: kursun tədrisinə qədər və kursun tədrisindən sonra.

"III kurs tələbələrinin tərbiyəvi fəaliyyətə hazırlanmasında tərbiyə işinin təşkili metodikası kursunun səmərəlilik dərəcəsinin göstəriciləri" və "III kurs tələbələrinin tərbiyəvi fəaliyyətə hazırlanmasında tərbiyə işinin təşkili metodikası kursunun səmərəlilik dərəcəsinin səviyyəsi" adı ilə verilən cədvəllərdə tədqiqatın eksperimentdən əvvəl və eksperimentdən sonra faiz göstəriciləri öz əksini tapmışdır. Belə ki, eksperimentin başlamasına qədər sosial komponentlərin formalaşdırılması səviyyəsi 49,4 %, eksperimentin keçirilməsindən sonra isə bu rəqəm 60 %-ə qədər yüksəlmişdir. Sosial komponentlərin formalaşdırılmasının aşağı səviyyəsi 17,6%-dən 13 %-ə, orta səviyyəsi isə 33%-dən 27 %-ə enmişdi.

Peşəkarlıq keyfiyyətlərinin formalaşdırılması səviyyəsinin qiymətləndirilməsi isə bu cür dəyişmişdir: eksperimentə qədər yüksək səviyyə 33,5%, eksperiment başa çatdıqdan sonra isə 71,8 %; aşağı səviyyə 21,2 %, eksperimentdən sonra 7 %; orta səviyyə 45,3 %-dən 21,2 %-ə endi. Yüksək şəxsiyyət keyfiyyətlərinə malik olan eksperiment iştirakçılarının sayı 50,6 %-dən 56,5 %-ə qədər artdı. Şəxsiyyət keyfiyyətlərinin formalaşmasının orta səviyyəsi 31,8%-dən 30 %-ə qədər azaldı, aşağı səviyyə isə 17,6 %-dən 13,5 %-ə düşdü.

Beləliklə, sosial komponentlərin formalaşdırılması səviyyəsi 49,4%-dən 54,8%, şəxsiyyət komponentlərinin formalaşdırılması səviyyəsi 50,6%-dən 56,5%-ə, peşəkar komponentlərin formalaşdırılması səviyyəsi isə 33,5%-dən 71,8%-ə qədər yüksəlmişdi.

Gələcək ibtidai sinif müəllimlərinin tərbiyə işinə hazırlanmasında pedaqoji təcrübənin səmərəlilik dərəcəsi səviyyəsini isə III və IV kurs tələbələrinin fəaliyyətində üzə çıxardıq. Pedaqoji təcrübə nəticəsində tələ-

bələr öz dünyagörüşlərini genişləndirmiş, şəxsi fəaliyyətlərini təhlil etmək və planlaşdırmaq bacarığına yiyələnmiş və bütövlükdə, həyat təcrübəsi qazanmışlar, onlarda özlərinə inam hissi artmış və peşə seçimində düzgün mövqe tutduqlarına əmin olmuşlar.

III və IV kurs tələbələrinin tərbiyəvi fəaliyyətə hazırlanmasında pedaqoji təcrübənin səmərəlilik dərəcəsi səviyyəsinin müqayisəli cədvəli

Cədvəl 2.1.

| № | Komponentlər | Səviyyələr | III kurs | | IV kurs | |
|---|---|---|---|---|---|---|
| | | | Eksperimentə qədər (%) | Eksperi-mentdən sonra (%) | Eksperimentə qədər (%) | Eksperi-mentdən sonra (%) |
| 1. | Sosial | Yüksək | 49,4 | 57 | 46,5 | 70,6 |
| | | Orta | 28,8 | 26 | 33,5 | 18,8 |
| | | Aşağı | 21,8 | 17 | 20 | 10,6 |
| 2. | Peşəkarlıq | Yüksək | 33,5 | 64,1 | 33,5 | 88,2 |
| | | Orta | 43,5 | 24,1 | 43 | 9,4 |
| | | Aşağı | 23 | 11,8 | 23,5 | 2,4 |
| 3. | Şəxsiyyət | Yüksək | 47 | 51,8 | 48,2 | 69,4 |
| | | Orta | 32,4 | 30,6 | 31,8 | 20,6 |
| | | Aşağı | 20,6 | 17,6 | 20 | 10 |

III, IV kurs tələbələrinin tərbiyə işinə hazırlanmasında pedaqoji təcrübənin səmərəlilik səviyyəsinin müqayisəsi (cədvəl 2.1) nəticəsində aşağıdakıları qeyd edə bilərik: hər iki kursun tələbələrində sosial keyfiyyətlərin formalaşmasının yüksək səviyyəsi daha da yüksəlmiş, yəni III kursda 7,6 %, IV kursda isə 24,1% artmışdır; III kursda peşəkarlıq keyfiyyətləri eksperimentin əvvəlinə nisbətən sonunda 30,6%, IV kursda isə peşəkarlığın yüksək səviyyəsi eksperimentin sonunda 54,7% artmışdır, III kursda şəxsi keyfiyyətlər eksperimentin əvvəlinə nisbətən 4,8%, IV kursda isə 21,2% yüksəlmişdir.

Eksperimentin sonunda bütün kurs tələbələrinin sosial, peşəkarlıq və şəxsi keyfiyyətlərinin formalaşmasının orta səviyyəsi azalmışdır. III kursda sosial keyfiyyətlərin orta səviyyəsi eksperimentin sonunda başlanğıcına nisbətən 2,8%, IV kursda isə 14,7% azalmışdır. Peşəkarlığın formalaşmasının orta səviyyəsi III kursda 19,4%, IV kursda isə bu səviyyə eksperimentin əvvəlinə nisbətən 33,6% aşağı düşmüşdür. III kursda şəxsi keyfiyyətlərin formalaşmasının orta səviyyəsi eksperimentin əvvəli ilə

müqayisədə 1,8% azalmışdı. IV kursda isə şəxsi keyfiyyətlərin formalaşmasının orta səviyyəsi eksperimentə qədər 31,8%, eksperimentdən sonra isə 20,6% olmuşdur, yəni tələbələrdə şəxsi keyfiyyətlərin formalaşmasının orta səviyyəsi 11,2% azalmışdır.

Eksperimentin sonunda sosial keyfiyyətlərin aşağı səviyyəsi III kursda 4,8%, IV kursda 9,4%, peşə keyfiyyətləri III kursda 11,2%, IV kursda 21,1%, şəxsi keyfiyyətlər III kursda 3%, IV kursda 10%-ə qədər azalmışdır.

Müqayisəli cədvəlin təhlili bizə belə bir nəticəyə gəlməyə imkan verdi: tələbələrin tərbiyə işinə hazırlanmasında pedaqoji təcrübənin səmərəlilik dərəcəsinin yüksək səviyyəsi eksperimentin gedişində artır, buna müvafiq olaraq, orta və aşağı səviyyələr isə azalır və bu faiz III kursa nisbətən IV kursda daha da yüksəlir. Bu da onu göstərir ki, gələcək müəllimlərin tərbiyə işinin düzgün təşkilinə xidmət edən bilik və bacarıqların qazanılması proqramının reallaşdırılması nəticəsində tələbələr sosial, peşə və şəxsi keyfiyyətlərə kursdan-kursa keçdikcə daha çox yiyələnirlər.

Beləliklə, gələcək müəllimin ali təhsili aldığı mərhələdə tərbiyə işinə hazırlanması modelinin reallaşdırılması aşağıdakı tədbirlərin təşkili ilə həyata keçirilir:

- təlim-tərbiyə prosesinin təşkili, pedaqoji-psixoloji, metodiki və xüsusi bilik və bacarıqların verilməsi (mühazirə, seminar, pedaqoji təcrübə və s.) ilə;
- elmi-tədqiqat işlərinin, təlim və pedaqoji təcrübələrin təşkili (kurs işlərinin yerinə yetirilməsi və müdafiəsi, elmi-praktik konfranslarda iştirak etmək və s.) ilə;
- tələbələrin təlimdənkənar fəaliyyətinin təşkili (maraq klubları, yaradıcılıq dərnəkləri və s.) ilə;

Nəhayət, biz belə hesab edirik ki, tələbələrin universitetdə müxtəlif təlim-tərbiyə fəaliyyətinə cəlb edilməsi onlarda gələcək ibtidai sinif müəllimi kimi tərbiyə işinə hazırlanmasında sosial, peşə və şəxsi keyfiyyətlərin yaranmasına şərait yaratmışdır. III və IV kurs tələbləri ilə apardığımız eksperimentlərdən əldə etdiyimiz nəticələri təhlil edərək belə bir nəticəyə gəldik ki, gələcək ibtidai sinif müəllimləri üçün yaratdığımız şərait onlara bilik qazanmağa, tərbiyə işinin təşkilində pedaqoji bacarıq və vərdişlərin formalaşdırılmasına kömək edir.

Fikrimizcə, bütün bunların nəticəsi isə tələbələrdə ibtidai sinif müəlliminin fəaliyyətinə, bütövlükdə tərbiyə işinə müsbət münasibətin yaranmasıdır. Bunu tələbənin tərbiyə işi üçün nəzəri biliklərinin dinamikası, elmi

məlumatların tələbələr tərəfindən praktiki fəaliyyətdə tətbiq olunması təsdiqləyir.

Yuxarıda dediklərimizin təhlili bizə belə bir nəticəyə gəlməyə imkan verdı: eksperimentin gedişində sosial, peşə və şəxsi komponentlərin formalaşması səviyyəsi dəyişir. Biz belə hesab edirik ki, alınmış nəticələr gələcək müəllimlərin tərbiyə işinin düzgün təşkilinə xidmət edən bilik və bacarıqların qazanılması proqramının reallaşdırılmasını əks etdirir.

Bu fəslin *"İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasında ixtisasartırma sisteminin imkanlarından istifadə" adlı* üçüncü yarımfəslində müasir dövrdə ali təhsildən sonrakı təhsilin xüsusi aktuallıq və əhəmiyyət kəsb etdiyi vurğulanır. Burada məqsəd müəllimlərin yaradıcılıq potensialı və tədqiqatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsidir. Müəllim ixtisasartırma sistemində yalnız təhsilə aid yeni bilikləri əldə etməklə kifayətlənmir, onları təhlil, müqayisə və bəzən də inkar edir. Dissertasiyada müəllimlərin ixtisasartırmasının forma və metodları, təhsil işçilərinin ixtisasartırma və yenidənhazırlanma fakültələrinin nümunəsində müəllimin tərbiyə işinə hazırlığının formalaşdırılması proqramı üzrə nümunəvi tematik plan verilmişdir. Proqram nəzəri və təcrübi hissələrdən ibarətdir. Onun yerinə yetirilməsi üçün müxtəlif metodlardan və iş növlərindən istifadə olunmuşdur. Bu metodların tətbiqi ilə həyata keçirilən məşğələlərin gedişi və nəticəsi haqqında məlumat verilir.

Dissertasiyada təşkil olunan bəzi diskussiyaların, didaktik oyunların tematikası, rəngarəngliyi diqqəti cəlb etməklə yanaşı, tədqiqatın məqsədinə nail olmağa kömək edir. Apardığımız eksperimeltal işin nəticəsi aşağıdakı cədvəldə verilmişdir.

Müəllimlərin tərbiyəvi fəaliyyətə hazırlanlması səviyyəsi.

Cədvəl 2.2

| № | Komponentlər | Səviyyələr | Eksperimentə qədər | | Eksperimentdən sonra | |
|---|---|---|---|---|---|---|
| | | | İçtirakçıların sayı | % | İştirakçıların sayı | % |
| 1. | Sosial | Yüksək<br>Orta<br>Aşağı | 18<br>21<br>11 | 36<br>42<br>22 | 25<br>23<br>2 | 50<br>46<br>4 |
| 2 | Peşə | Yüksək<br>Orta<br>Aşağı | 12<br>22<br>16 | 24<br>44<br>32 | 25<br>25<br>0 | 50<br>50<br>0 |
| 1. | Şəxsi | Yüksək<br>Orta<br>Aşağı | 20<br>22<br>8 | 40<br>44<br>16 | 26<br>22<br>2 | 52<br>44<br>4 |

Cədvəldən göründüyü kimi, sosial komponentlərin förmalaşdırılmasının yüksək səviyyəsi 14% artmış, aşağı səviyyəsi isə 18% enmişdir.

Şəxsi komponentlərin förmalaşdırılmasının yüksək səviyyəsi 12% artmış, aşağı səviyyə isə 12%-ə qədər azalmışdır.

Eksperimentin əvvəlində peşə komponentlərinin formalaşdırılmasının yüksək səviyyəsi eksperimentdə iştirak edən 12 nəfərdə, başqa sözlə 24% olmuş, eksperimentin sonunda isə 25 nəfərdə və ya 50% olmuşdur. Bu isə aşağı səviyyənin 0-a enməsinə gətirib çıxarmışdır.

Beləliklə, bizim eksperimentimiz ixtisasartırma sistemində müəllimin tərbiyəvi fəaliyyətə hazırlığının formalaşdırılması üçün tərəfimizdən hazırlanmış modelin səmərəsini sübut etdi. Belə ki, bu proqram özündə pedaqogika, psixologiya və digər elmlər sahəsində ən yeni məlumatları, ibtidai sinif müəllimlərinin təcrübəsini özündə əks etdirir. Müəllimin tərbiyəvi fəaliyyətə hazırlığının formalaşdırılması üzrə proqramda eyni zamanda müəllimin özünüdərk, özünüinkişaf və özünütəkmilləşdirməsinə yardım edə bilən müxtəlif növ işgüzar oyun növləri, treninqlər də ehtiva olunmuşdur.

Apardığımız tədqiqatlar göstərdi ki:

– ali təhsil müəssisələrində və ali təhsildən sonrakı mərhələdə aparılan məqsədyönlü iş, ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının təcrübəyönümlü modelinin işlənilməsi və reallaşdırılmasını, ali təhsil müəssisələrində təlim-tərbiyə prosesinin təşkilini, ixtisasartırma sistemində bu işin məntiqi surətdə davam etdirməsini özündə ehtiva edir və fasiləsiz pedaqoji təhsil sistemində müəllimin tərbiyəvi faliyyətə hazırlanmasına imkan yaradır;

– eksperimentin gedişində gələcək müəllimlər təhsil müəssisələrində tərbiyəvi fəaliyyətə hazırlanmanın səviyyəsi haqqında məlumat əldə etdilər ki, bu da onların tərbiyə işinə hazırlanmasında vacib şərt hesab edilir;

– müəyyənləşdirildi ki, işləyən və gələcək müəllimlərin sistematik və məqsədyönlü təlimə ehtiyacı vardır. Bu məqsədlə tələbə və müəllimlər üçün təcrübəyönümlü modeli, "İxtisasartırma sistemində ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanması" adlı proqram (əlavə təhsil fakültəsinin dinləyiciləri üçün) işlənib hazırlanmışdır;

– müəllimlərlə eksperiment qrupunda aparılmış müşahidə, alınmış nəticələrin təhlili, fərdi söhbətlər təsdiq etmişdir ki, təşkil edilmiş pedaqoji şərait və hazırlanmış proqram müəllimlərin tərbiyə işinə müsbət münasibətinin formalaşmasına imkan yaradır və müəllimlərin özünüinkişafı və özünütəkmilləşdirməsində vasitə kimi çıxış edir;

– fəaliyyətdə olan və gələcək müəllimlərin tərbiyə işinə hazırlığının formalaşdırılması meyarlarının səviyyələrində müsbət dəyişikliklər üzə çıxarıldı və bununla da pedaqoji şəraitin effekti sübut olundu;

– sübut olunmuşdur ki, tələbə və müəllimlərin tərbiyə işinə hazırlanması üzrə təşkil olunmuş təlim-tərbiyə prosesinin məzmununa bir-biri ilə qarşılıqlı əlaqədə olan və bir-birini tamamlayan komponentlərin (məqsəd, vəzifələr, üsullar, forma, vasitə və meyarlar) sistemi kimi baxmaq olar;

– ixtisasartırma sisteminin müxtəlif forma və üsullarından istifadə olunmasını fasiləsiz pedaqoji təhsil sistemində ibtidai sinif müəlliminin tərbiyə işinə hazırlanmasında vacib şərt kimi qəbul edirik. Belə ki, işgüzar oyunlar, treninqlər, "dəyirmi masa" tipli seminar məşğələləri, təlim fəaliyyətinin təşkilində informasiya və təcrübə mübadiləsinə imkan yaradır, müxtəlif fikir və baxışların formalaşmasına və müqayisəsini təmin edir, yaradıcılıq mühitinin yaranmasına və maraqların artmasına zəmin yaradır, işləyən və gələcək ibtidai sinif müəllimlərinin tərbiyəçi işinə hazırlığının effektivliyini müəyyənləşdirir;

– təlim prosesi və auditoriyadankənar fəaliyyətin müxtəlif formalarının əlaqələndirilməsi müstəqillik, fəal təfəkkür, yaradıcı yanaşma tələb edən, nəzəriyyə və təcrübənin sıx əlaqəsini təmin edən pedaqoji situasiyaların yaradılması ilə həyata keçirilir.

Qeyd olunan pedaqoji şərtlər bir-birindən ayrı deyil, əksinə bütövlükdə tədqiqatın vəzifələrini həll etməyə imkan verir.

Tədqiqat zamanı aşağıdakı **nəticələrə** gəlinmişdir:

Cəmiyyətdə yaranmış müsbət dəyişikliklər ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətinə verilən tələblər və müəllimin bu tələbləri yerinə yetirməyə hazırlığı arasında ziddiyyətlərin yaranmasına səbəb olmuşdur. Ona görə də fasiləsiz pedaqoji təhsil sistemində müəllimin tərbiyəvi fəaliyyətə hazırlanması probleminin həllinin vacib olduğu üzə çıxarıldı.

Eksperimental tədqiqatın gedişində aşkar olunmuşdur ki, müəllimin tərbiyəvi fəaliyyətə hazırlanması prosesi öz təcrübəsinə əsaslanaraq şagirdlərlə qarşılıqlı əlaqə qurması, eləcə də özünüinkişafa və özünütəkmilləşdirməyə tələbatını dərk etməsi ilə həyata keçirilir.

Fasiləsiz pedaqoji təhsil sistemində ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının xüsusiyyətləri üzə çıxarıldı: ali təhsil müəssisəsi və ali təhsildən sonrakı mərhələlərin ümumi və spesifik xüsusiyyətləri müəyyənləşdirildi.

Tədqiqat zamanı, tələbələr və müəllimlərin tərbiyəvi fəaliyyətə hazırlanmasının komponentləri, göstəriciləri və meyarları dəqiqləşdirildi. Komponentlərə - sosial, peşəkarlıq və şəxsiyyət komponentləri aiddir.

Müəllimin tərbiyəvi fəaliyyətə hazırlanmasının pedaqoji şəraiti müəyyənləşdirilmişdir, başqa sözlə müəllimin tərbiyəvi fəaliyyətə hazırlanmasının təcrübəyönümlü modeli hazırlanmış və reallaşdırılmış, ali təhsil müəssisəsində təlim-tərbiyə prosesinin təşkili öyrənilmiş, ixtisasartırma sisteminin imkanlarından istifadə olunmuşdur.

Eksperimentin nəticələri fasiləsiz pedaqoji təhsil sistemində müəllimin tərbiyəvi fəaliyyətə hazırlanmasındakı göstəricilərin müsbət dəyişikliklərini üzə çıxardı. Bununla da pedaqoji şəraitin effektivliyi sübuta yetirildi, nəticədə isə tədqiqatın fərziyyəsi öz təsdiqini tapdı.

Dissertasiyanın məzmunu aşağıdakı **elmi əsərlərdə** öz əksini tapmışdır:

1. İbtidai sinif şagirdlərinin davranış estetikasının formalaşmasında ailənin və ibtidai sinif müəlliminin birgə işi. //Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2004, № 4, s. 297-300

2. İbtidai sinif müəlliminin fəaliyyətinə verilən müasir tələblər. //Pedaqoji tədqiqatlar (elmi məqalələr məcmuəsi). 2005, № 1(23), s. 151-154

3. Müasir dövrdə ibtidai sinif müəlliminin pedaqoji-psixoloji fəaliyyətinin xüsusiyyətləri. //Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2005, №1, s. 229-232

4. Kiçik məktəb yaşlı uşaqların psixoloji xüsusiyyətləri. //Elm və cəmiyyət (elmi məqalələr toplusu). «Kitab aləmi», 2005, № 1, s. 217-224

5. İbtidai sinif müəlliminin tərbiyə işinə hazırlığının müasir problemləri. // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2006, №2, s. 152-156

6. İbtidai sinif müəlliminin pedaqoji-psixoloji fəaliyyətinin stukturu. //Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri (pedaqoji-psixoloji elmlər seriyası). 2006, № 4, s. 101-105

7. K.D.Uşinskinin Azərbaycanda məktəb və pedaqoji fikrin inkişafına təsiri. // Bakı Slavyan Universitetinin Elmi əsərləri (ictimai-siyasi elmlər məcmuəsi). 2009, № 1, s. 277-283

8. İbtidai siniflərdə tərbiyə işinə təsir edən bəzi amillər. //Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri. 2009, № 4, s. 59-63

9. Пути формирования профессиональных качеств у будущих учителей. // Воронежский государственный педагогический университет. Технологии и методики в образовании. Изд.-во «Мастеринг», Воронеж, 2010, № 5, с. 3-5

10. Azərbaycan ictimai fikrində şəxsiyyət tərbiyəsi. /Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli Lider Heydər Əliyevin anadan

olmasının 88-ci ildönümünə həsr olunmuş II Beynəlxalq elmi konfransın materialları, Bakı-Gəncə, 4-7 may 2011-ci il. Bakı, 2011, s. 154-160

11. Влияние К.Д.Ушинского на подготовку учительских кадров в Азербайджане. // Bakı Slavyan Universiteti. Azərbaycanda rus dili və ədəbiyyatı. Elmi-metodik və mədəni-ictimai jurnal. Bakı, 2011, № 3, s. 42-45

12. Значение курсов по повышению квалификации учителей начальных классов в подготовке к воспитательной работе. // Издание Поиск. Научный журнал Министерства Образования и Науки. Научный журнал-приложение Международного научно-педагогического журнала «Высшая школа Казахстана» Алма-Ата, 2012, № 2, с. 64-69

Шахкерем Мирзамамед оглу Мамедов

Психолого-педагогические основы подготовки учителя начальныхклассов к воспитательной деятельности

Резюме

Диссертация посвящена актуальной проблеме. В современных условиях количество факторов, влияющих на воспитание учащихся, возрастает. Поэтому есть необходимость оказать на них целенаправленное воздействие.

Диссертация состоит из введения, двух глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы, определяются объект, предмет, цель и задачи, научная новизна и практическая значимость исследования, выносимые на защиту основные положения.

Первая глава «Научно-теоретические основы подготовки учителя начального класса к воспитательной деятельности» состоит из трех параграфов. В них анализируются взгляды ряда ученых, посвященные различным аспектам подготовки учителя, и определяется точка зрения автора исследования. Учитывая различные толкования понятия «подготовка», устанавливается два подхода: 1) подготовка к выполнению задания; 2) подготовка себя как личность. В связи с этим выявляются общие особенности учителя в условиях вуза и послевузовский период, что имеет важное теоретическое и практическое значение.

Во второй главе под названием «Проблемы подготовки учителя начальных классов к воспитательной деятельности в высших учебных заведениях и послевузовский период» раскрывается значения понятий «педагогические условия» и «модель». Анализ психолого-педагогической литературы по исследуемой проблеме позволил определить цель, содержание, методы и формы работы и осуществить подготовку учителя к воспитательной деятельности с применением разработанной для этой цели программы и примерного тематического плана.

В заключении сформулированы выводы проведенного исследования.

**S.M.Mamedov**

Pedagogical-psychological basis of teacher's preparation of primary class for educational activity

Summary

The thesis deals with an urgent problem. In modern conditions, the number of factors, which affect the education of students is increasing, therefore there is a need of purposeful action on them.

The thesis consists of an introduction, two chapters, conclusion and list of references.

In the introduction substantiated the relevance of the theme determined by its object, subject, purpose and objectives of the study, scientific novelty and practical significance. States, which are submitted to the protection, were the results of the pedagogical experiment.

The first chapter is entitled "Research and theoretical bases of training of primary school teachers to educational activities". The head consists of three subchapters. They analyzed the views of several scientists, which are dedicated to various aspects of teacher training and determined the author's point of view. Given the different interpretations of the concept of "preparation" there two approaches: 1) preparation for the assignment; 2) preparation of your self as a person. In this regard, current studies concerning detection of common features of a teacher in University College and in post-graduate period, which have theoretical and practical importance, and which must be considered in the preparation of teachers.

The second chapter, which is called "Pedagogical conditions of the process of teacher training for entry-level educational activities in educational institutions", revealed the meaning of the concepts of "teaching conditions" and "model". Analysis of pedagogical and psychological literature, which is related with the problem of study, allowed defining the purpose, content, methods and forms of

Work and exercise the training of teachers to the educational activities for a specified period using the developed programs and exemplary thematic plan.

The conclusion formulated the findings of the study.

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ
УНИВЕРСИТЕТ

*На правах рукописи*

ШАХКЕРЕМ МИРЗАМАМЕД оглу МАМЕДОВ

# ПСИХОЛОГО-ПЕДАГОГИЧЕСКИЕ ОСНОВЫ ПОДГОТОВКИ УЧИТЕЛЯ НАЧАЛЬНЫХ КЛАССОВ К ВОСПИТАТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ

5804.01 – Общая педагогика, история педагогики и образования

АФТОРЕФЕРАТ

диссертации на соискание научной степени
доктора филасофии по педагогике

БАКУ – 2014